Pərişan eşqin qəmli hekayəti

◆ Zəriflərin dünyası

“Hər zaman Təbrizin pilot yoldaşları mənə deyirdi ki, sən güclü ol ki, bir gün biz də qayıtmayanda ailələrimizə sən dəstək olasan. Elə bir söz deyəcək qüvvədə ol ki, onlar da ayaq üstündə dimdik dura bilsinlər. Təbriz özü də xeyli vaxt idi ki, məni bu gün üçün hazırlayırdı. Hər gün mənə deyirdi: “Bil ki, mən bir gün bu qapıdan çıxıb bir daha qayıtmaya bilərəm. Buna hazırlıqlı ol”...



Evlilik təklifini 8 martda etmişdi. Onu Kürdəmirə ezamiyyətə göndərmişdilər, oradan zəng vurmuşdu ki, “sən Əsədova mən Musazadə ilə ailə qurmağa razı olarsanmı?” Həyəcandan heç nə deyə bilməmişdim...
Toyumuzun tarixini də özü seçmişdi: mayın 28-ni...

Sınıq xatirələr

Elə bil ürəyinə dammışdı...

Şəhidliyinə hazırlayırdı ömür-gün yoldaşını...

Onsuz keçəcək çətin, ağır sınaqlara, məşəqqətlərə sinə gərməyə... Aprelin 2-də son danışıqlarında övladlarını ona, Pərişanın özünü isə Allaha əmanət etmişdi, demişdi ki, sən güclü qadınsan. Pərişan ağlamış, etiraz etmişdi: “Yox, mən güclü deyiləm, yanılırsan... Gəl özün uşaqlarına sahib çıx...”

Əslində hər şey bu son danışıqdan sonra şəhid pilotumuz Təbriz Musazadənin həyat yoldaşı Pərişana əyan olmuşdu...

Onlu xatirələrin gah xoş, gah da acılı anlarından danışırdı...

Fikirləri ardıcıl deyildi, tez-tez qırılırdı - ömrü baharında qırılan Təbriz kimi... Bəzən hər şeyi sadəcə gözlərinin dərinliyində yuva salmış qüssə, kip bağlanmış dodaqlarının sükutu, bəzən isə gözlərindən gilələnərək yanağından süzülüb sinəsi aşağı tökülən iri yaş damlaları anladırdı...

- Mən Təbrizi hələ uşaq ikən tanıyırdım. Sinif yoldaşımın xalası oğlu idi. Aramızda 7 yaş fərq var idi və mənim o zaman ağlıma istək-filan gəlmirdi... Təbriz xalası qızının dərsləri ilə məşğul olanda mənim də dərslərimə baxırdı, rüblüklərimi yoxlayırdı. Mən məktəb əlaçısı idim, amma bəzən həftəiçi 4 alırdım. O zaman deyirdi ki, “yaramaz”, belə olmaz. Bu sözü də hər adama demirdi, ən çox sevdiyi insanlara deyirdi.

Çox ciddi idi. Ürəyindəki istəyini sözlər ifadə etmirdi. Mən 10-cu sinifdə oxuyanda bir gün zəng vurdu ki, çıx həyətə, sənə sözüm var. Mənə qızılgül gətirmişdi, onu verəndən sonra söylədi ki, Pərişan, sən məni başa düşürsən də, nə demək istəyirəm?!.

“Axır ki mən də öz serenadamı oxudum...”

Elə həmin zamanlarda bir gün Naxçıvanski adına Hərbi Liseyin müəllimi görür ki, Təbriz başında şlyapa, əlində gitara qan-tər içində məktəbə gəlib. Müəlliminin çaşqınlıq içərisində verdiyi suala isə bircə cümlə ilə cavab verir: “Müəllim, axır ki mən də öz serenadamı oxudum”...

- Ömrümdə Təbrizi belə görməmişdim. Mənə zəng vurdu ki, balkona çıx. O zaman aramızda inciklik olmuşdu. Balkona çıxanda gördüm ki, dostlarının köməyi ilə birtəhər ikinci mərtəbədəki balkonumuza qədər çıxıb məhəccərdən yapışıb. Əlində də bir buket gül. Valideynlərim bilməsin deyə dərhal gülü alıb oradakı dolaba qoydum və dedim ki, çıx get, özüm də tələsik içəri keçdim. Bir də gördüm ki, Təbrizin səsi həyəti götürüb başına. Əlində gitara, başında şlyapa o zaman dəbdə olan serenada tipli bir mahnını qalın və xoşagəlməz səs tonu ilə oxuyur. Bütün bina onun tamaşasına çıxmışdı... Mən naəlaclıqdan yalvardım ki, çıx get, səni bağışlayıram.

Evlilik təklifini isə 8 martda etmişdi. Onu Kürdəmirə ezamiyyətə göndərmişdilər, oradan zəng vurmuşdu ki, “sən Əsədova mən Musazadə ilə ailə qurmağa razı olarsanmı?” Həyəcandan heç nə deyə bilməmişdim...

Toyumuzun tarixini də özü seçmişdi: mayın 28-ni...

Sözümü öldürməyin...

Birlikdə sevincli, kədərli günləri bölüşmək, bir-birinə arxa, dayaq olmaq üçün bu həyat yolunda qoşa addımlamağa başladılar.

- O çox ciddi idi, xüsusilə də evlilik həyatında. Bəzən kənardan Təbriz haqqında soruşurdular ki, o, ümumiyyətlə gülməyi bacarır? Hətta şəhid olandan sonra şəkilləri yayılanda hamı baxıb deyirdi ki, necə də gözəl gülürmüş. Amma biz onun gülüşünü heç görməmişdik.

Mən də hər zaman deyirdim ki, sən zarafat etmirsən, edəndə də bu, tarixə yazılır.

O, hirsləndiyi şeyi də açıq deməz, heç zaman səsini yüksəltməzdi. Baxışından başa düşürdüm ki, nə demək istəyir. O, həmişə deyirdi ki, mən özümün ölməyimə razıyam, amma sözümün ölməyinə yox, mənim sözümü öldürmə. Mənə “Feya” deyirdi - yəni mələk, elə telefonuna da bu cür qeyd etmişdi adımı.

Bütün atalar kimi, o da uşaqlarına düşkün idi, onlarla uşaqlaşırdı. Həmişə qapıdan içəri girəndə uşaqlar ikisi də ona əsgər salamı verirdi. Birdən əllərini düzgün tutmayanda çölə çıxıb yenidən gəlirdi ki, təzədən salam verin.

İstəyirdi ki, həyatda hər şey onların ürəyincə olsun. Son zamanlarda Türkiyəyə getmişdi, qayıdıb gələndə deyirdi ki, uşaqları da ora aparacam. Xüsusilə də İzmir şəhərinin qədim, zəngin tarixindən xoşu gəlirdi.

Ötən il “Türk və Azərbaycan şəhid övladları qucaqlaşır” adlı qardaşlıq layihəsi çərçivəsində Azərbaycandan şəhid övladlarını Türkiyəyə aparmışdılar. Mən “whatsapp” qrupunda Təbrizin bu arzusu barədə yazmışdım. Səhəri gün fotolara baxdım ki, uşaqları İzmirə aparıblar. Oradan yazmışdılar ki, “Təbrizin arzusunu yerinə yetirdik, uşaqlarını İzmirə gətirdik...”

Tayfunla Onur o qədər də fərqində deyildilər, çünki bilmirdilər ki, ataları bu arzuda idi, amma mənim o anda hansı hislər keçirdiyimi bir özüm bilirəm...

İndi atamın qəbrini açsaq, onu öpə bilərəm?!.

Şəhid qadını olmaq çox çətindir, şəhid övladının anası olmağı isə sözlə ifadə etmək mümkün deyil. Hara qaçsan, hara getsən, o ağlamsınmış həsrətli gözlərdən, hər an atasını soruşacaq olan o sual dolu baxışlardan yayına bilməyəcəksən. Baxanda ürəyini, qaçanda kürəyini deşəcək bu baxışlar...

- Uşaqlar indi məni incitməmək üçün ataları barədə çox soruşmurlar. Əvvəllər Onur daha kiçik olduğu üçün çox suallar verirdi, atasını soruşurdu. Deyirdi ki, ana, atamı kambezonunda basdırıblar, hə, ona heç nə olmaz. Deyirlər ki, şəhidlər ölmür, indi biz onun qəbrini açsaq, atamı öpə bilərəm?

Deyirdi ki, atamın qoxusu üçün darıxmışam. Mən onlara başa salmağa çalışırdım ki, atanın cismini sevmək lazım deyil, onun ruhunu sevmək lazımdır. Çünki sabah mən də sizin yanınızda olmaya bilərəm, amma siz məni unutmamalısınız. Onun ruhunu sevəndə insan sənin üçün heç zaman ölmür. Elə bilirsən ki, o həmişə var, sadəcə cismi yoxdur.

Bir dəfə Onuru gecə saat 12-də hərbi hissənin pilotların ailələri üçün olan şəhərciyindəki aerodroma apardım. Ona dedim ki, indi göyə bax, ulduzların arasından atan görür səni. Baxdı, baxdı və ağlamağa başladı ki, ana, atam məni görür, amma mən atamı görmürəm axı...

Atam yoxdur, mən səni də itirmək istəmirəm, ana...

Təbrizdən sonra yaşamaq çətin idi, amma o, elə Təbrizin öz amallarından güc aldı...

- Ondan sonra çətin idi yaşamaq. Hadisələri anlaya bilmirdim, bir müddət depressiyaya düşdüm. Heç kim gözümə görünmürdü artıq, uşaqlarım da...

Bir gün böyük oğlum Tayfun dedi ki, ana, nə zamana qədər belə edəcəksən? Atam yoxdur, amma mən səni də itirmək istəmirəm.

Elə bil ki, o bu sözləri ilə bir şillə vurub məni ayıltdı. Övladlarımın mənə ehtiyacı vardı, onlar məni həyata qaytardı.

Ondan sonra qalxdım, düşündüm ki, nə edə bilərəm. Mən bağçada müəllim işləyirdim. Amma düşünürdüm ki, daha güclüsünü edə bilərəm. Hər zaman Təbrizin arzusu idi ki, kimsəsiz uşaqlar üçün təhsil mərkəzi açıb onlara dərs deyək. Öz adına qismət imiş. Əslində biz oranı Tayfunun adına açmaq istəyirdik. Deyirdi ki, Tayfun fırtına deməkdir, biz orada fırtına kimi uşaqlar yetişdirərik.

Mən Təbrizin adına Təhsil və İncəsənət Mərkəzi açdım. Orada şəhid, qazi uşaqlarına, kimsəsiz körpələrə dərs deməyə başladıq.

O təhsil mərkəzini il yarım işlədəndən sonra ürəyimdə problemlər yarandı, infarkt keçirmişdim. 35 gün komada yatdım. Görünür, acımı tam yaşamadan birdən-birə bu qədər yükü çiynimə götürməyim ağırlıq gətirmişdi. Həkimlərin də məsləhəti ilə məcburən o işi dondurmalı oldum. Üzərindən bir il keçəndən sonra Şəhid və Kimsəsiz Uşaqlara Yardım İctimai Birliyi yaratdım. Uşaq sığınacaqlarına yardım edirik, şəhid uşaqlarına, kimsəsizlərə pulsuz dərslər veririk. Yəni eyni missiyanı burada davam etdiririk...



Təbriz Musazadə 1981-ci il avqustun 12-də Gürcüstanın Dmanisi rayonunun Yaqublu kəndində anadan olub. 8-ci sinfi bitirdikdən sonra 1996-cı ildə C.Naxçıvanski adına Bakı Hərbi Liseyinə daxil olub.

1999-cu ildə liseyi müvəffəqiyyətlə bitirib, Bakı Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə) daxil olub, daha sonra isə ali təhsilini Bakı Ali Təyyarəçilik Məktəbində davam etdirib.

2003-cü ildə ali məktəbi uğurla bitirərək leytenant rütbəsi ilə “N” saylı hərbi hissədə zabit kimi hərbi xidmətə başlayıb, mayor rütbəsinədək yüksəlib.

2016-cı ilin aprel ayında mayor Təbriz Musazadə və mayor Urfan Vəlizadə baş leytenant Əbu Bəkir İsmayılov ilə birgə idarə etdiyi Mi-24 helikopteri ilə Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışmaya qatılıb. Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı Mi-24 ermənilər tərəfindən vurulub və helikopterdə olan heyət üzvləri qəhrəmancasına şəhid olublar. Qəhrəman şəhidlərin nəşi aprelin 10-u neytral ərazidən götürülüb.

Təbriz Musazadə ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilib.

Son mesaj

...Təbriz Musazadə sonuncu dəfə Novruz bayramını ailəsi, övladları ilə birlikdə keçirib cəbhəyə yola düşdü. Ürəyinə dammışdı ki, bu gedişi son ola bilər. Amma yolundan dönməmişdi, bilirdi ki, özündən sonra güclü bir qadın və iki igid oğul qoyub gedir...

- Mənə hər zaman deyirlər ki, Pərişan, sən necə güclüsən. Amma mənim ürəyimdə olanları heç kim bilmir, bilmir ki, bu, zahiri gücdür əslində...

Düz 10 gün Təbrizin nəşini vermədilər, 11-ci gün gətirmişdilər. Nəşinə o qədər əziyyət vermişdilər ki, tabuta sığmırdı. Tabutun ağzını mismarlamışdılar ki, mən onu açа bilməyim, son dəfə üzünü görə bilmədim...

Martın 30-da cəbhəyə getmişdi. Aprelin 1-də zəng vurub dedi ki, Feya, mən axşama gələcəm. Gecə saat on oldu, gəlmədi, on bir oldu, gəlmədi. Narahat oldum, zəng vurdum, gülüb dedi ki, sən qapını bağla, yat, mən özüm hasardan tullanıb gələcəm. Dedim ki, elə şey olmaz, mən həmişə gecə də olsa qapını özüm sənin üzünə açmışam, bu dəfə də

Bir gün böyük oğlum Tayfun dedi ki, ana, nə zamana qədər belə edəcəksən? Atam yoxdur, amma mən səni də itirmək istəmirəm.
Elə bil ki, o bu sözləri ilə bir şillə vurub məni ayıltdı. Övladlarımın mənə ehtiyacı vardı, onlar məni həyata qaytardı.

elə olmalıdır. Dedi ki, yox, bu dəfə fərqli olacaq... Sən demə, o, heç gəlməyəcəkmiş, sadəcə aprelin 1-i olduğu üçün mənimlə zarafat edirmiş, sonuncu və dəhşətli zarafatını...

Aprelin 2-si səhər tezdən baxdım, mənə mesaj yazıb, ki, “səni çox sevirəm”. Bu mənə çox təəccüblü gəldi, çünki səhər lap tezdən, 6 radələrində yazmışdı.

Sonra zəng vurdum, götürmədi. Haradasa 10 radələrində geri zəng vurdu. Soruşdum ki, necədir vəziyyət? Üstüörtülü dedi ki, burada toy-büsatdır, fişənglər atılır, hər şey yaxşıdır. Sonra üzərindən bir az keçdi. Evdə heç kim yox idi, mən idim, bir də iki uşaq. Televizoru açanda baxdım ki, aşağıda titrlərdə yazılıb ki, Mİ-24 helikopteri vurulub. Dərhal Təbrizə zəng vurdum, amma nömrəsinə zəng çatmırdı.

Üstündən 15 dəqiqə keçəndən sonra xalası oğlu zəng vurub soruşdu ki, Pərişan, Təbriz hardadır? Təbriz cəbhəyə gedəndə mənə tapşırmışdı ki, heç kimə bu barədə demə ki, narahat olarlar. Denən ki, kənddə iş yoldaşının toyudur, ora gedib, mən də hamıya elə deyirdim. Artıq mən başa düşdüm ki, xalası oğlu nəsə bilir. Ağlaya-ağlaya soruşdum ki, odur vurulan? Mənə dedi ki, yox, o, yaralanıb, hər şey yaxşıdır, salamat gələcək, narahat olma.

Dayanmadan Təbrizə zəng vururdum, amma zəng çatmırdı...

İş yoldaşlarına, tələbələrinə zəng vururdum, heç kim cavab vermirdi...

Amma Pərişan bilmirdi ki...

Amma Pərişan bilmirdi ki, Təbrizin iş yoldaşları, tələbələri o zəng vuranda təyyarələrin endiyi xəttin üzərində hamısı diz çöküb dəhşətlə əllərindəki zəng çalan telefonlara baxırlar. Heç biri cürət edib telefonu açа bilmirdi, axı nə cavab versinlər ona?! Necə desinlər ki, biz yola saldıq helikopterləri, hamısı gəldi, Təbriz qayıtmadı...

- Ümidim var idi. Hər gün onu gözləyirdim. Əslində, bilirdim, amma qəbul etmək istəmirdim. Biri gəlib deyirdi ki, sağdır, helikopterin yarı hissəsi dağılmayıb, yaxud hansısa çoban Təbrizi yaralı görüb. Sonra polkovnik-leytenant dostlarından biri mənə zəng vurub dedi ki, Pərişan, sən uşaq deyilsən, mən də sənə yalan danışmayacam, artıq Təbriz yoxdur, bunu bil. O, şəhid olub.



Sonra zəng vurdum, götürmədi. Haradasa 10 radələrində geri zəng vurdu. Soruşdum ki, necədir vəziyyət? Üstüörtülü dedi ki, burada toy-büsatdır, fişənglər atılır, hər şey yaxşıdır. Sonra üzərindən bir az keçdi. Evdə heç kim yox idi, mən idim, bir də iki uşaq. Televizoru açanda baxdım ki, aşağıda titrlərdə yazılıb ki, Mİ-24 helikopteri vurulub. Dərhal Təbrizə zəng vurdum, amma nömrəsinə zəng çatmırdı.

Dedim ki, yox, Təbriz ölməyib, mən onu gözləyirəm. O isə sərt şəkildə dedi ki, nəşini gözlə, özünü yox. Sonra dedilər ki, artıq nəşini də vermirlər. Əvvəl deyirdim ki, əli, ayağı, gözü olmasın, təki gəlsin, ömrümü ona fəda edərəm. Artıq ümidim hər yerdən üzüləndə həmin dostuna zəng vurdum ki, onun nəşini mənə gətir. Nəşini gətir ki, gedib üzərində qoxusunu ala biləcəyim bir yer olsun...

Mən qayıtmasam...

Təbriz şəhid olandan 5 gün sonra Pərişanın telefonuna SMS gəlir. Həmin SMS-də məlumat verilirdi ki, Təbriz son uçuşuna gedəndən əvvəl ona zəng vurub, amma zəng çatmayıb. Pərişan deyir ki, bəli, o mənimlə son dəfə danışıb halallaşmışdı, amma helikopterə oturmazdan əvvəl telefonunu istəyib yenidən mənə zəng vurub. Elə Pərişanı da yandırıb-yaxan odur ki, Təbrizin son olaraq ona nə demək istədiyini öyrənə bilməyib. Bəlkə, daha nə isə tapşıracaqmış, bəlkə ona sadəcə sevdiyini deyəcəkmiş, bəlkə övladlarının səsini son dəfə eşitmək istəyəcəkmiş...

Bəlkə...

Tələbələri sonradan danışıblar ki, Təbriz Musazadəyə deyirmişlər ki, nə zamana qədər siz gedəcəksiniz uçuşa, bizim də adımızı yazın, biz də düşmən üzərinə getmək istəyirik. Təbriz isə deyirmiş: “İndi mən varam, siz uçuşa gedə bilməzsiniz. Nə vaxt gedib qayıtmasam, onda da siz gedəcəksiniz, mənim övladlarımı qoymayacaqsınız...”

Son dəfə uçuşa getməzdən əvvəl isə Urfan Vəlizadə ilə Təbriz Musazadə oturub nahar edirmişlər. Baxırlar ki, Əbu Bəkir İsmayılov kənarda dayanıb. Təbriz çağırıb ki, “Əbum, gəl yanıma, bu çörəkdən sən də kəs. Sonra, bilmək olmaz, sənin qanın mənə, mənim qanım sənə qarışar. Qarışıq düşər tabutlarımız, analarımız bizi ağlayanda halallıq olsun ki, duz-çörəyimizi kəsmişik”.

- Təbriz sonuncu dəfə səhər evdən çıxandan sonra zəng vurdu ki, uşaqları göndərirəm, idman çantamı hazırla. Dedim, yenə gedirsən? Çünki ayın əvvəli də cəbhəyə getmişdi. Dedi ki, vəziyyət qarışıqdır, yenə gedirəm. Paltarlarını yığdım çantasına, gəlib apardılar.

- Ümidim var idi. Hər gün onu gözləyirdim. Əslində bilirdim, amma qəbul etmək istəmirdim. Dedilər ki, artıq nəşini də vermirlər. Əvvəl deyirdim ki, əli, ayağı, gözü olmasın təki gəlsin ömrümü ona fəda edərəm. Artıq ümidim hər yerdən üzüləndə zəng vurdum ki, onun nəşini mənə gətir. Nəşini gətir ki, gedib üzərində qoxusunu ala biləcəyim bir yer olsun...

Təbrizin dəfnində ağrı-acımdan gəlib onun çantasını aparan uşaqların qəlbinə dəydim, gözlərini qaldırıb üzümə baxa bilmirdilər. Deyirdim ki, gəldiniz, onun salamat çantasını apardınız, amma sonra çiyninizdə tabutunu gətirdiniz...

Sonra hər birindən üzr istədim...

Əslində, biz elə bilirik ki, onlar Fəxri xiyabanda dəfn olunublar. Amma onlar qanlarının töküldüyü Füzulidə dəfn olunublar. Mənim bu dünyada bircə arzum var ki, ora ayaq basa bilək. Deyirəm ki, torpaqlar alınanda ora dizin-dizin gedib Təbrizin qanı tökülən o torpağa üzümü sürtəcəm. Təbrizin qoxusunu oradan alacam...

Artıq mart ayından etibarən mənə hər yerdən aprelin qoxusu gəlir. Bütün varlığımla bunu hiss edirəm. Özümü idarə edə bilməyəcək vəziyyətə düşürəm.

Amma mən güclü olmalıyam...

Şəhid əmanəti

O, təkcə həyat yoldaşını yox, sevdiyini, dostunu, sirdaşını, həmdəmini itirib. Qəlbi qan ağlayır, ürəyi sızlayır, könlü pərişandır. Amma o, Təbrizə, bir şəhidə söz verib. Söz verib ki, heç zaman sınmayacaq, dik duracaq - Təbrizin amallarını yaşatmaq naminə. Bir də Təbriz ona iki əmanət tapşırıb gedib...

Qəhrəman qadın, qəhrəman ana, elə sən özün də müqəddəs şəhidimizin bu vətənə, bizlərə bir əmanətisən. Nə qədər ki Təbriz kimi igid oğlanlar, Pərişan kimi məğrur, əyilməz Azərbaycan qızları var, şəhidlər ölməz, vətən bölünməz...

Yasəmən MUSAYEVA,
“Azərbaycan”